

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# Azərbaycan Respublikasının bayrağı altında üzən kiçik həcmli gəmilərin təsnifatı haqqında

# Qərar № 97

***Bakı şəhəri, 23 aprel 2008-ci il***

«Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 dekabr tarixli, 511 nömrəli Fərmanının 5.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasının bayrağı altında üzən, aşağıda göstərilən gəmilər kiçik həcmli gəmilər hesab edilir:

a) tankerlər, sərnişin, bərə, ro-ro, quru yük, avtomobil daşıyan, hərbi, yardımçı hərbi, yedək, dövlət mülkiyyətində olan və ya dövlət tərəfindən istismar olunan gəmilər istisna olmaqla, ümumi tutumu 300 registr tondan və mühərrikinin gücü 250 kvt-dan az olan bütün növ balıqçı, gəzinti və idman gəmiləri;

b) asma mühərrikinin sayından və gücündən asılı olmayaraq, asma mühərriklə hərəkət edən bütün növ gəmilər.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***